istifadə edildiyi qiymətləndirmə üsulları vasitəsilə əldə edilən qiymətləndirmələr və (iii) 3-cü səviyyəyə müşahidə edilən bazar məlumatlarına əsaslanmayan qiymətləndirmələr (müşahidə edilməyən ilkin məlumatlar) daxildir. Maliyyə alətlərini ədalətli dəyərlə qiymətləndirmə iyerarxiyalarına bölmək üçün rəhbərlik peşəkar mülahizələr irəli sürür. Ədalətli dəyərlə qiymətləndirmə üçün əhəmiyyətli dərəcədə düzəlişlər tələb edən müşahidə edilə bilən məlumatlardan istifadə edildikdə, bu qiymətləndirmə 3-cü Səviyyəyə aid edilir. İstifadə edilən məlumatların əhəmiyyətliliyi bütövlükdə ədalətli dəyərin qiymətləndirilməsi ilə ölçülür.
Maliyyə aktivləri və öhdəliklərinin balans dəyəri 3-cü səviyyədə ölçülür və təxminən onların ədalətli dəyərinə bərabərdir. Maliyyə öhdəliklərinin ədalətli dəyəri, analoji maliyyə alətləri üçün Şirkətdə mövcud olan cari bazar faiz dərəcəsi ilə gələcək müqavilə üzrə pul vəsaitlərinin hərəkətini diskontlaşdırmaqla təxmin edilir.

31 dekabr 2024 və 2023 tarixlərinə Şirkətin bütün maliyyə aktivləri və öhdəlikləri amortizasiya olunmuş dəyərlə uçota alınmışdır.

## 10 Hesabat tarixindən sonra baş vermiş hadisələr

Hesabat tarixindən sonra açıqlanmalı olan əhəmiyyətli hadisələr baş verməmişdir.

## 11 Əsas vəsaitlər

Əsas vəsaitlər yığılmış amortizasiya və ehtiyac yaranarsa dəyərsizləşmə çıxılmaqla, ilkin dəyərdə uçota alınır.
Əsas vəsaitlər üzrə amortizasiya düz xətt metoduna, yəni əsas vəsaitlərin təxmini faydalı istifadə müddəti ərzində aktivlərin ilkin dəyərini onların qalıq dəyərinədək azaltmaqla hesablanır. Əsas vəsaitlərin hər təsnif qrupu üzrə faydalı istifadə müddəti "5 il" olaraq nəzərə alınmışdır.
Əsas vəsaitlərin balans dəyəri üzrə hərəkəti aşağıdakı kimi olmuşdur:

| | **Torpaq, tikili və qurğular** | **Maşınlar və avadanlıq** | **Nəqliyyat vasitələri** | **Digər** | **Cəmi** |
|---|---|---|---|---|---|
| **1 yanvar 2023 Balans dəyəri** | **0** | **0** | **155.831** | **0** | **155.831** |
| Daxil olmuşdur | | | | | **0** |
| Təqdim edilmişdir | | | | | **0** |
| Amortizasiya xərci | | | 31.166 | | **31.166** |
| **31 dekabr 2023 Balans dəyəri** | **0** | **0** | **124.665** | **0** | **124.665** |
| Daxil olmuşdur | | 10.933 | | | **10.933** |
| Təqdim edilmişdir | | | | | **0** |
| Amortizasiya xərci | | 2.186 | 24.933 | | **27.119** |
| **31 dekabr 2024 Balans dəyəri** | **0** | **8.747** | **99.732** | **0** | **108.479** |

## 12 Pul vəsaitləri və onların ekvivalentləri

| *Azərbaycan manatı ilə* | *2024* | *2023* |
|---|---|---|
| Pul vəsaitləri | 172.224 | 36.293 |
| **CƏMİ** | **172.224** | **36.293** |